# MƏTBUATIMIZ XALQIMIZIN MARAQLARINA XİDMƏT GÖSTƏRİR

*Bu il iyunun 2-də Prezident İlham Əliyev "Azərbaycan Milli Mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzalayıb. Dövlət başçısının bu sərəncamının icrası istiqamətində tədbirlər reallaşdırılır. Mətbuat yayımı kollektivləri daimi dövlət qayğısını öz üzərlərində hiss edir, mətbuatın kütləviliyinə nail olmaq üçün var qüvvələrini sərf edirlər.*

**Böyükkişi Məmmədov, Salyan rayon Mətbuat yayımı şöbəsinin müdiri:**




—Həsən bəy Zərdabi tərəfindən əsası qoyulmuş mətbuatımızın yubileyinin bayram edilməsi cəmiyyətimizin həyatında mühüm hadisədir. Cənab İlham Əliyevin bu təşəbbüsünü alqışlayırıq. Biz, hər yerdə, hər sahədə dövlət başçısını özümüzlə bir cərgədə görürük. O, bizim əməyimizi daim yüksək qiymətləndirir. Mətbuat işçilərinin əməyinə verdiyi qiymətə görə ölkə rəhbərinə öz təşəkkürümüzü bildiririk. Bu gün bir ağsaqqal olaraq fəxr edirəm ki, qabaqcıl ziyalıları, ədəbiyyat, incəsənət adamları ilə həmişə haqlı olaraq öyünən salyanlıları həm də mətbuatımızın yaxın dostu hesab etmək olar.

Vətənimizin və onun bir parçası olan Salyanın bugünkü nailiyyətləri ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır, onun müdrik siyasətinin bəhrəsidir. Ulu öndərimiz demişdir: "Həyatımın son dəqiqəsinədək xalqıma xidmət edəcəyəm və ömrümün bundan sonrakı illərini də xalqıma bəxş edirəm". Bu hikmətin mənasını zaman keçdikcə daha açıq-aydın, bütün dərinliyi ilə dərk edirik və hər birimiz öz sahəmizdə fəaliyyətimizi məhz bu ruhda qurmağa çalışmalıyıq.

Mən uzun illər rəhbər vəzifələrdə və mətbuatda çalışmışam. 1969-cu ildən rayon Mətbuat yayımı şöbəsində rəhbər vəzifədəyəm. Mətbuatımızı cəmiyyətdə ünsiyyət vasitəsi, milli ideyanın həyata keçirilməsində, milli mənafelərin qorunmasında, gənc nəslin tərbiyəsində ən mühüm vasitə hesab edirəm. Bizdə hər gün 45-50 adda qəzet və jurnallar abunəçilərə çatdırılır. Bunun üçün 4 köşk, 2 səyyar satıcı daimi fəaliyyətdədir. İctimaiyyətlə daimi əlaqələr yaradılması işə müsbət təsir göstərir. Bunun nəticəsində mətbuata abunə yazılışı həmişə uğurla yerinə yetirilir.

**Salman Abdullayev, Ağcabədi rayon mətbuat yayımı şöbəsinin müdiri:**




—Mətbuatdan söz düşəndə ilk növbədə Prezidentimiz cənab İlham Əliyevin bu fikirləri yada düşür: "Azərbaycanda aparılan siyasi islahatların əsas mənası, məqsədi ondan ibarətdir ki, ölkəmiz hərtərəfli inkişaf etsin, ölkədə yaşayan hər bir vətəndaş bütün azadlıqlardan istifadə etsin. Azərbaycanda, o cümlədən mətbuat azadlığı da mövcuddur... Biz bu məsələdə çox ciddi addımlar atırıq. Söz azadlığının, mətbuat azadlığının təmin olunması bizim prioritet məsələmizdir və deyə bilərəm ki, Azərbaycan bu sahədə böyük uğurlara nail olmuşdur".

Mən bir vətəndaş olaraq fəxr edirəm ki, mətbuatımız ölkəmizdə gedən prosesləri, həyatımızın bütün problemlərini çox açıq şəkildə işıqlandırır. Elə bir mətbu orqan yoxdur ki, insanların gündəlik həyatından və fəaliyyətindən bəhs etməsin, onların gərgin əməyini işıqlandırmasın, iş təcrübəsini ümumiləşdirib yaymasın. Mətbuatın səhifələrində Ağcabədi rayonunun iqtisadi və sosial həyatına da həmişə geniş yer verilir, qəzetlərimiz əslində kollektivlərimizin əsl dostuna və köməkçisinə çevrilmişlər. Bu uğurun daha da artıb şaxələnməsində yaradıcı insanların fəaliyyətini bütün sakinlərimiz adından yüksək qiymətləndirirəm və onları ürəkdən təbrik edirəm.

**Sabir MUSTAFAYEV,**
**"Respublika".**